**“Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

“Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, 8, maddə 477; 2001, 11, maddə 687, 12, maddələr 731, 736; 2002, 5, maddə 241, 6, maddə 328; 2006, 2, maddə 75; 2007, 6, maddə 561, 12, maddə 1197; 2008, 7, maddə 602; 2010, 4, maddə 275; 2013, 5, maddə 477; 2016, 11, maddə 1765) 1-ci maddəsinin “valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların arasından olan şəxslər” bəndində “18 yaşınadək hər iki valideynini itirmiş, habelə hər iki valideyninin” sözləri “valideynlərini itirmiş, habelə valideyn” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 noyabr 2018-ci il
1369-VQD